AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNDƏ TƏLİM EHTİYACLARININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ MEYARLARI İLƏ BAĞLI TƏLİMAT

I. Əsas müddəalar

1.1. Təlim ehtiyaclarının müəyyənləşdirilməsi Universitetin, müəllim və işçi heyətinin fəaliyyət prosesində üzləşdiyi problem və ya çətinliklərin mümkün həllini təsvir edən prosesdir.

1.2. Ehtiyacların qiymətləndirilməsi gələcəyi nəzərə alaraq nə edilməlidirsə ona fokuslanır, mövcud real vəziyyətlə nəzərdə tutulan ideal hal arasındakı boşluq təhlil edilir və qənaətə gəlinir.

1.3. Təlim ehtiyaclarının müəyyənləşdirilməsi və bu ehtiyacların ödənməsi kadr potensialının və performasının yüksəldilməsini təmin edən əsas faktorlardır.

1.4. Təlim ehtiyaclarının müəyyənləşdirilməsi universitetin və müəllim-işçi heyətinin maraqlarını özündə ehtiva edir.

1.5. İl ərzində keçirilmiş təlimlərdən faydalanaraq öz fəaliyyətində fərqlənən əməkdaşların əmək müqavilələrinin müddəti 3 və ya 5 illik olmaqla fərqli qaydada bağlana bilər.

II. Təlim ehtiyaclarının müəyyənləşdirilməsində Universitetin maraqları

2.1. Universitet əməkdaşlarının öz səriştəliliyinin artırılmasında maraqlıdır. Müəllim performansının artırılması ATMU-da təlim ehtiyaclarının ödənilməsinə müsbət təsir göstərir.

2.2. Müəllimlərin təlim ehtiyaclarının ödənilməsi üçün universitet ehtiyaclar üzərində fokuslanır, çətinlikləri müəyyənləşdirir, onun yaranma səbəblərini təhlil edir, ümumi qənaətə gəlir.

2.3. ATMU öz əməkdaşlarının yeni təlim metodlarından istifadə əsasında fəaliyyət göstərmələrində maraqlıdır. Bunun üçün əməkdaşlarını universitetlərarası təcrübə mübadiləsinə yönəldir, performansın monitorinqini aparırır, inkişafın dinamikasını izləyir.

2.4. Müəllimlərin təlim ehtiyaclarının ödənməsi ATMU-da vaxt və vəsait itkisinin qarşısını alır, təlimin keyfiyyətinin yüksəldilməsini təmin edir.

III. Təlim ehtiyaclarının müəyyənləşdirilməsində Universitet əməkdaşlarının maraqları.

3.1. ATMU əməkdaşları təlim ehtiyaclarının müəyyənləşdirilməsində və öz fəaliyyət performansının yüksəldilməsində maraqlıdır.

3.2. Əməkdaşlar iş performansını artırmaq məqsədi ilə özünü təhvil əsasında bilik, bacarıq və vərdişlər sistemindəki boşluqları müəyyənləşdirir, onun aradan qaldırılması yolları istiqamətində fəaliyyətini davam etdirir.

3.3. Müəllim tədris etdiyi fənn üzrə özünütəhsil əsasında nəzəri biliklərini, metodiki iş qabiliyyətini, yeni təlim üsullarından istifadə bacarıqlarını artırır.

3.4. Təlim ehtiyaclarının müəyyənləşdirilməsində qabaqcıl təcrübənin öyrənilməsi, açıq və qarşılıqlı dərslərin dinlənilməsi və təhlili mühüm əhəmiyyət kəsb edir. Bu iş üsulları təlim ehtiyaclarının müəyyənləşdirilməsi meyarları kimi də əhəmiyyətlidir.

IV. Təlimə ehtiyac aşağıdakı meyarlardan qaynaqlanır:

4.1. ATMU-da keçirilən attestasiya nəticələrindən

- Hər təqvim ilinin sonunda işçilərin qiymətləndirilməsi həyata keçirilərək tutduqları vəzifəyə uyğunluqları qiymətləndirilir.
- Attestasiya nəticəsində işçilər tutduqları vəzifəyə uyğun deyilsə;
- İşçilər tutduqları vəzifədən daha yüksək vəzifəyə keçirilmək istəyirlərsə və müəyyən bilikləri kifayət etmirsə.

4.2. ATMU daxilində həyata keçirilən layihələrdən

- İl ərzində müxtəlif layihələr çərçivəsində keçirilən təlimlərdə müxtəlif əməkdaşların iştirakı vacibdir.

4.3. ATMU-nun daxili prosedur və qaydalarından

- Universitetin daxili prosedurlarına görə təlimlərin keçirilməsi nəzərdə tutulmuşsa;
- Universitet qaydalarında yeni əməkdaşlar üçün təlimlər nəzərə tutulduğu halda.

4.4. Azərbaycan Respublikası NK-nin və Elm və Təhsil Nazirliyi Kollegiyasının qərarlarından.

- Kredit sistemi ilə təhsilin təşkili ilə əlaqədar mütamadi NK və TN kollegiyasının qərarları olur ki, bunun da dekanlıq əməkdaşlarına və müəllimlərə çatdırılması labüdlüyü yaranır.

Təlimin qiymətləndirmə meyarları:

ÜMUMİ MƏLUMAT	
İŞTİRAKÇININ ADI, SOYADI, ATASININ ADI:	
İŞTİRAKÇININ VƏZİFƏSİ:	
TƏLİMİN ADI:	
TƏLİMÇİ/MƏSLƏHƏTÇİ: (Adı, soyadı, atasının adı)	
TƏLİMİN MÜDDƏTİ:	

Tədris kursu/seminar/praktik məşğələ/oxu materialı/video (CD,kaset)/e-learning olduğu halda:

№	**TƏLİMİN FAYDALILIĞI**	**1 bal**	**2 bal**	**3 bal**	**4 bal**	**20 bal**
1	Bu mövzuda biliyim artdı	☒	☐	☐	☒	☐
2	Məzmun aydın və anlaşıqlı idi	☐	☐	☐	☐	☐
3	İstifadə olunan əyani vəsaitlər(audio və video materiallar) öyrənməni asanlaşdırırdı və tətbiq oluna bilər	☒	☒	☐	☐	☐
4	Təlimin müddəti yetərli idi	☐	☐	☐	☐	☐

№	TƏLİMÇİ/MƏSLƏHƏTÇİ	1 bal	2 bal	3 bal	4 bal	21 bal
1	Keçirdiyi tədris kursu/ seminar/ praktik məşğələyə hazırlıqlı idi	☐	☒	☐	☒	☐
2	Mövzu barədə məlumatlı idi və bildiklərini asanlıqla ifadə edə bilirdi	☐	☐	☐	☐	☐
3	Qrupla ünsiyyəti müsbət idi	☐	☒	☒	☐	☐
4	Vaxtdan səmərəli istifadə edirdi	☐	☒	☒	☐	☐

TƏLİMİN QİYMƏTLƏNDİRİLMƏSİ	1 bal	2 bal	3 bal	4 bal	5 bal
Ümumiyyətlə təlimi necə qiymətləndirirsiniz?	☐	☒	☐	☒	☐
ÜMUMİ FİKİRLƏRİNİZ, TƏKLİFLƏRİNİZ:					

İştirakçının imzası_____

Tarix: _____ _____

TƏLİMİN İŞ PROSESİNDƏ FAYDALILIĞININ DƏYƏRLƏNDİRİLMƏSİ: (Təlimdən 2 ay sonra struktur rəhbəri tərəfindən doldurulur)	
1. Təlimdə mənimsənən biliklər gözləntiləri qarşıladı?	
2. Təlimin hansı faydaları oldu? Xahiş edirik 3-4 faydasını sadalayasız	
3. İşçinin öyrəndikləri işində necə istifadə/tətbiq edildi? Xahiş edirik 3-4 sahəni sadalayasız	

Qeyd: Bu forma iştirakçı və struktur rəhbəri tərəfindən doldurulur, təsdiqlənir və təhlil üçün İnsan resursları şöbəsinə təqdim olunur.

Şöbə müdirinin imzası _____

Tarix: ____ _____

Təlim Planı

Ad və Soyad	*Vəzifə adı*	*Tələb olunan bilik və bacarıqlar*	*Tələb olunan zəruri təlim*	*Təlimin məqsədi*	*Təlimin tarixi*	*Zəruri təlimin keçirilməsinə dair qeyd*	*Təlim məqsədlərinə nail olunubmu?*	*Qazanılan bilik,bacarıq. təcrübə*